# Ali Baş Komandan bizi inamla böyük qələbəyə doğru aparır



**Sentyabrın 29-da "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan – Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunmuş verilişdə Azərbaycan Prezidenti İlham Əliyev proqramın aparıcılarının suallarına sistemli, ardıcıl, faktlara əsaslanan cavablar verdi. Cənab Prezident ölkəmiz üçün önəmli, eyni zamanda, taleyüklü bir dövrdə müsahibə verərək həqiqətləri bir daha böyük auditoriyaya çatdırdı. Həmçinin Rusiya ictimaiyyətini, rusdilli auditoriyanı Ermənistanın təxribatları, işğalçılıq və təcavüzkar siyasəti haqqında dolğun, eyni zamanda, dəqiqliklə məlumatlandırdı.**

Hər şeydən əvvəl, vurğulamaq lazımdır ki, aparıcıların iki ölkənin – Ermənistan və Azərbaycanın dövlət başçılarına olan münasibəti kəskin fərqlənirdi. Belə ki, aparıcı suallara başlamazdan öncə Azərbaycan Prezidentinə müsahibəni verməyə razılaşdığına görə xüsusi təşəkkür edib və sonda üzünü ölkə başçımıza tutaraq ona "Sizə cansağlığı arzulayırıq", deyə söhbəti olduqca müsbət sonluqla yekunlaşdırıb. Fikrimcə, bu, Azərbaycan Prezidentinə olan xüsusi rəğbətin və hörmətin bariz nümunəsi, sözlərinə və fikirlərinə verilən önəmin növbəti təzahürü idi.

Ölkə başçımızdan fərqli olaraq beynəlxalq ictimaiyyət qarşısında çıxış edərkən indiyədək dəfələrlə rəzil duruma düşən Nikol Paşinyan bu dəfə də öz "ənənəsinə" sadiq qaldı. Suallar qarşısında aciz qalan Ermənistanın baş naziri yenə də çıxışında heç bir fakta əsaslanmayan yalan və uydurmalar söylədi və tək bir sözlə ifadə etsək, aparıcılar tərəfindən də "yola verildi". Bütövlükdə isə iki ölkə başçısı arasında olan müqayisəyə belə gəlməyəcək fərq təkcə, bu proqramda üzə çıxmadı. Bütün dünya birliyi tərəfindən də böyük əks-səda doğuran Münhen Təhlükəsizlik Konfransında da debat zamanı Paşinyana tarix və hüquq dərsi keçən ölkə başçımız onun kürəyini asanlıqla yerə vurmuşdu. Bundan öncə Aşqabaddakı "dəyirmi masa"da, BBC-nin "Hard Talk" proqramında da Paşinyanın siyasətdən və diplomatiyadan nə qədər uzaq olduğu aydın olmuş, dəfələrlə dünya ictimaiyyətinin gözü önündə rəzil və rüsvay duruma düşmüşdü.

Sual-cavab hissəsindən sonra müzakirələrdə iştirak edən siyasi və hərbi ekspertlər də bu iki dövlət başçısı arasında olan uçurumu olduqca tutarlı arqumentlərlə əsaslandırdılar. Belə ki "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko Azərbaycan və Ermənistan liderlərinin çıxışlarını diqqətlə dinlədiyini bildirdi və İlham Əliyevin çıxışını şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış kimi dəyərləndirdi. O, xüsusilə cənab Prezidentin təhsilinə diqqət çəkdi. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun böyük kadrlar yetişdirdiyini qeyd edərkən cənab Prezidentin savadına, intellektinə diqqəti yönəldərək bu institutun, doğrudan da, böyük kadrlar yetişdirdiyini bildirdi. Buradan da əyani surətdə aydın olur ki, ölkə başçımız siyasətin sadəcə empirik hissəsinə deyil, nəzəriyyəsinə də bütün incəliklərinə qədər hakimdir. Çünki ölkə başçımız bu nəhəng diplomatiya institutunun yetişdirməsi olmaqla kifayətlənməyib, eyni zamanda buranı bitirib elmi dərəcəyə yiyələndikdən sonra da nəhəng elm ocağında müəllim kimi çalışaraq savadlı tələbə ordusu yetişdirib.

"Biz hamımız beynəlxalq hüququn tərəfdarıyıq. Beynəlxalq hüquq nöqteyi-nəzərindən, döyüş əməliyyatları Azərbaycanın ərazisində, Azərbaycan hərbi qüvvələri və erməni hərbi birləşmələri arasında aparılır", – deyə Korotçenkonun əlavəsi bir neçə aspektdən önəmlidir. Əvvəla, deməli, beynəlxalq birlik yaxşı fərqindədir ki, beynəlxalq hüquq nöqteyi-nəzərdən döyüş əməliyyatları Azərbaycan ərazisində gedir. Daha dəqiq ifadə etsək, Azərbaycan Silahlı Qüvvələri öz sərhədləri çərçivəsində mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün düşmən qüvvələrinə qarşı cavab tədbirləri görür. Bundan əlavə, Korotçenkonun döyüş əməliyyatlarının Azərbaycan hərbi qüvvələri və erməni hərbi birləşmələri arasında aparıldığını vurğulaması Paşinyanın döyüşlərdə Türkiyəni tərəf kimi göstərmək cəhdinin iflasa uğradığından xəbər verir. Çünki Türkiyə münaqişə tərəfi deyil, bu məsələdə sadəcə mənəvi dəstək verir, başqa heç bir rolu yoxdur. Həmçinin, Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət də yoxdur. Çünki cənab Prezidentin də haqlı olaraq vurğuladığı kimi Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.

İndi isə sual-cavab zamanı deyilənlərin mahiyyətinə gələk. Prezident İlham Əliyev ədalətli olaraq Paşinyanın əsassız arqumentlərini ifşa etdi və haqlı olaraq vurğuladı ki, peyk, elektron, kəşfiyyat texnologiyalarının müasir inkişaf səviyyəsini nəzərə alsaq, Azərbaycan ərazisinə doğrudan da türk qırıcıları göndərilsəydi, bu faktı gizlətmək mümkün olmazdı. Deməli, bu, Paşinyanın həyasızcasına yalnız özünün inandığı növbəti yalanıdır. Nəyə görə yalnız özünün inandığı? Çünki Paşinyana artıq öz xalqı da inanmır. Guya, xalqın iradəsi ilə hakimiyyətə gələn bu bədnam məxluq elə xalqının ümidlərini də çox keçmədən puç etdi, ölkə iqtisadiyyatı tamamilə iflic vəziyyətə düşdü, korrupsiya halları artdı, ölkədə insan hüquqları tapdandı, siyasi müxaliflər təqib olunaraq həbs olundu və s.

Məsələnin digər tərəfi isə informasiya müharibəsidir. Belə ki, döyüş sadəcə səngərdə deyil, informasiya məkanında da qızğın səviyyədədir. Belə ki, bu meydanda da erməni xisləti öz sözünü deyir.

Erməni xəbər maşını bu gün müxtəlif, heç bir əsası olmayan "feyk-nyus"lar istehsal edir. Bunların da məqsədi aydındır. Birincisi, bu mənfur ölkə öz ərazi bütövlüyünün bərpası vəzifəsini hazırda şərəflə yerinə yetirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaq istəyir. Şiddətli döyüşlər nəticəsində Azərbaycan Ordusunun bir sıra yaşayış məntəqələrini işğaldan azad etməsi, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutması faktı sübut edir ki, Azərbaycanın güclü ordusu var və bu, təkzibolunmaz faktdır. Ermənistan tərəfinin digər "feyk-nyus"u ondan ibarətdir ki, guya Azərbaycan ordusuna Suriyadan olan muzdlular cəlb olunub. Bunu birbaşa və qərəzli olaraq erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində durmadan dövr etdirir. Azərbaycanın hazırlıqlı ordusu və çox böyük səfərbərlik ehtiyatı mövcuddur. Daha dəqiq ifadə etsək, 2 milyon əhalisi olan Ermənistana qarşı vuruşan 10 milyon əhalidən və 10 minlərlə ehtiyatda olanlardan ibarət gücə malik Azərbaycanın buna ehtiyacı belə yoxdur. Suriyadan və Livandan olan terrorçuları Dağlıq Qarabağda yerləşdirərək beynəlxalq hüquq normalarını, habelə Cenevrə Konvensiyasını kobud şəkildə pozan, məhz Ermənistanın özüdür ki, bu cür "feyk-nyus"lar yaymaqla öz əməllərini malalamağa cəhd edir.

Bundan əlavə, hazırda Paşinyanın istəyi ondan ibarətdir ki, belə təsəvvür yaratsın ki, münaqişə genişlənir, ona üçüncü ölkələr qoşulur və beləliklə, öz təxribatına haqq qazandırmaq üçün mümkün qədər çox ölkə cəlb etməyə çalışsın.

Önəmli və cənab Prezident tərəfindən incəliklə vurğulanan daha bir məqam isə müsahibə zamanı ölkə başçımızın Rusiya kanalı vasitəsilə Paşinyanın şəxsində Ermənistan rəhbərinin Sorosun əlaltısı olmasını açıqca səsləndirməsidir ki, düşünürəm bu da Paşinyanın əsl simasının açılması baxımından Rusiya ictimaiyyəti üçün də mühüm əhəmiyyət kəsb edir.

Əlbəttə, bu kimi debatlarda və geniş auditoriyalarda bizim birinci silahımız tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanan haqlı mövqeyimizdirsə, ikincisi, bu tarixi faktları və haqlı mövqeyimizi geniş auditoriyalara savad və təmkinlə, xarici dillərdə rəvan nitqlə, sərbəst şəkildə çatdıran, diplomatik və siyasi cəhətdən püxtələşmiş dövlət başçısına malik olmağımızdır. Bundan əlavə, bu gün Azərbaycanın həyata keçirdiyi uğurlu layihələrlə dünya birliyi tərəfindən etibarlı tərəfdaş kimi tanındığı hamıya məlumdur. Çökmüş iqtisadiyyata və xalqı səfil həyat tərzinə məruz qalmış işğalçı Ermənistanı isə dünya ictimaiyyəti Paşinyanın simasında bir daha görür.

Ən önəmli məsələlərdən biri də iki xalq arasındakı uçurum qədər dərin olan fərqdir. Belə ki, bu gün Ermənistanda gənclər ordudan yayındığı və yaxud da postları qoyub qaçdığı halda, hər bir Azərbaycan gənci orduya könüllü yazılır, valideyinlər övladları ilə qürur duyur, onları "Vətən sağ olsun" – deyərək cəbhəyə yola salır, Azərbaycanda yaşayan və dünyaya səpələnən həmvətənlərimiz Ali Baş Komandana və Azərbaycan Silahlı Qüvvələrinə dəstək nümayiş etdirir, Qarabağ eşqi ilə yaşayır. Heç şübhəsiz ki, tarixi ədalət də, beynəlxalq hüquq da bizim tərəfimizdədir. Düşünürəm ki, Azərbaycan xalqının əzmi göz qabağındadır və əlavə sözə ehtiyac da yoxdur. "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"

**Şəbnəm HƏSƏNOVA,**
**politoloq**

Xalq qəzeti 2020.- 4 oktyabr.- S.8.